**UOT 902**
**https://doi.org/10.59849/2710-0820.2024.1.152**

**Anar Ağalarzadə**
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*AMEA Arxeologiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi*
*Azərbaycan*
*anararxeoloq@mail.ru*

# XUDUTƏPƏ YAŞAYIŞ YERİNİN XALKOLİT-İLK TUNC DÖVRÜ TAPINTILARI HAQQINDA

***Açar sözlər***: *Cənub-şərq bölgəsi, Xudutəpə yaşayış yeri, Xalkolit-İlk Tunc dövrü, stratiqrafiya, xronologiya.*

## Giriş

Azərbaycanın cənub-şərq bölgəsi tarixin bütün dövlərinə aid arxeoloji abidələrlə zəngindir. Xalkolit-İlk Tunc dövrü tapıntıları da bu baxımdan istisna deyildir. Məlum olduğu kimi Muğanın Xalkolit dövrü abidələrinin tədqiqi hələ XX əsrin 60-cı illərindən F.Mahmudovun adı ilə bağlıdır. Onun, Əliköməktəpə yaşayış məskənində uzun müddət apardığı arxeoloji tədqiqatlar Muğanın bəhs olunan dövr oturaq əkinçi-maldar əhalisinin həyat tərzi və maddi mədəniyyəti haqqında dolğun məlumat almağa imkan verir. Son illərdə Muğanda bu dövrə aid abidələrdə tədqiqatların genişləndirilməsi də mühüm elmi nəticələr vermişdir (3, s. 21-25, s. 38-44, s. 46-51, s. 81-86). Lakin, bölgənin İlk Tunc dövrü yaşayış abidələri bu günə kimi çox zəif öyrənilmişdir. Yalnız bir neçə yaşayış məskənlərində - Həməşaratəpəsi, I və III Mişarçay, Adsıztəpə, Cinlitəpədə aparılan yoxlama qazıntıları ilə qismən fikir söyləmək mümkün olmuşdur (16, c. 22-23). Bu baxımdan Xudutəpə yaşayış yerində aparılan geniş miqyaslı qazıntıların böyük elmi əhəmiyyəti vardır.

*Yaşayış yerinin təsviri*

2021 və 2023-cü ilin çöl tədqiqatları mövsümündə Cəlilabad rayonunun Çəmənli kəndi ərazisindəki Xudutəpə çoxtəbəqəli (Xalkolit-Orta əsrlər dövrü) yaşayış məskənində aparılmış arxeoloji qazıntılar zamanı Xalkolit və İlk Tunc dövrünə aid təbəqələr də aşkar edilmişdir. Sahəsi 4 hektara yaxın olan abidə Cəlilabad-Şiləvəngə-Yardımlı şosse yolunun 22-ci km-də, yoldan 150 m sağ tərəfdə, Çəmənli və Cəlayir kəndləri arasında, dəniz səviyyəsindən 200 m yüksəklikdə, hündür təbii təpənin üzərində yerləşir. Əlverişli coğrafi relyefdə yerləşməsinə görə qədim əhali Xudutəpədə intensiv yaşayış məskəni salmış və beləliklə müxtəlif dövrlərə aid mədəni layların əmələ gəlməsilə nəticələnmişdir. Təpənin şimal və şimal-şərq hissəsində Erkən Dəmir dövrü nekropolu yerləşir. Təpəni şərq, cənub-şərq və cənubdan qədim çay dərələri əhatə edir. Məhz bu da təpənin üzərində uzunmüddətli və fasiləsiz həyatın olmasını şərtləndirən əlamətlərdən biridir. Bol su ehtiyatları burada yaşamış qədim əhalinin təsərrüfat həyatı və məişəti üçün əlverişli olmuşdur. Hətta yerli sakinlərin məlumatına görə, son illərə qədər Xudutəpənin ətrafı boyunca hər il yaz və payız aylarında sel suları keçərək dərələr boyu axıb şimal-şərqdə Bolqar çayına tökülmüşdür. Lakin əfsuslar olsun ki, hazırda təbiətdə baş verən ciddi iqlim dəyişiklikləri nəticəsində qədim çay dərələrinin də suyu qurumuş və təpənin ətrafı quraq sahələrə çevrilmişdir.

XX əsrin 70-ci illərində abidənin mərkəzində quşçuluq ferması tikilməklə təpənin demək olar ki 80 sm qalınlığında üst münbit qatı tam dağıdılmış və qarışdırılmışdır.

Təpənin nekropol hissəsində aparılmış arxeoloji qazıntılar nəticəsində üst dağıdılmış 80 sm-dən 1,2 m dərinliyə qədərki qatdan xeyli sayda qarışıq dövr keramika nümunələri götürülüb. Bu tapıntılar əsasən İlk Tunc dövrü materiallarından ibarətdir. Onların bu qatda çıxmasının səbəbi yuxarıda da qeyd etdiyimiz kimi abidənin uzun zaman təsərrüfat məqsədilə şumlanması, şimal istiqamətdə dərələrdən keçən sel zamanı uçurum yaranmaması üçün torpağın qa-

şınaraq çıxarılması nəticəsində alt qatın qarışdırılaraq üzə çıxmasıdır. Qəbir avadanlıqlarının yanında isə fraqmentlər halında tapılmasının səbəbi də məhz Erkən Dəmir dövründə dəfnlər zamanı alt layların qarışması ilə izah oluna bilər. Beləliklə, aydın olur ki, abidə əsasən Sovet dövründə ciddi dağıntılara məruz qalmışdır.

*Yaşayış yerinin stratiqrafiyası*

Tədqiqatlar zamanı təpənin cənub-qərb hissəsində, nisbətən ətəkdə 100 kv. metr sahədə aparılmış yoxlama qazıntıları nəticəsində qalın mədəni təbəqə üzə çıxmışdır. Bu qazıntıların aparılmasında məqsəd yaşayış yerinin stratiqrafiyasını (mədəni təbəqəsini) müəyyənləşdirmək idi. Belə ki, abidənin üst qatı Orta əsrlər dövrünə aid materiallarla müşayiət olunur. Bu tapıntılar kütləvi saydadır. 80 sm dərinlikdən başlayaraq Son Tunc-İlk Dəmir dövrü təbəqəsi üzə çıxmışdır. Bu təbəqədə də materiallar kütləvi şəkildə tapılmışdır. Ən alt qatda isə İlk Tunc və Xalkolit dövrünün (əliköməktəpə və leylatəpə tipli) artefaktları əldə edilmişdir.

Təbəqədə üzə çıxmış tikinti memarlığı da maraqlıdır. Misal üçün, III kv-n şərq tərəfində 2 metr dərinlikdən 1,4x1,4 m ölçülü, düzbucaqlı plana malik tikili qalığı açılmışdır. Eyni ölçülü digər tikili də kvadratın qərb divarında üzə çıxıb. Bütün tikililərin divarlarının qalınlığı 30 sm olub əsasən saman qarışıqlı torpaqdan hazırlanmışdır. Ümumilikdə tikili qalıqları 20 sm qalınlığındakı gil döşəmə üzərində qurulub.

I kvadratın şərq divarında 1,6 m dərinlikdə 50x10 sm ölçüsündə çiy kərpic qalıqları təmizlənmişdir. Salamat qalmış uzunluğu 2 m olan divar qalığının əsas hissəsi qazıntı sahəsindən şərq istəqamətində kənara düşdüyü üçün kərpiclərin enini dəqiqləşdirmək mümkün olmamışdır. Divarın kərpicləri saman qatışıqlı palçıqdan hazırlanmış və bir-birinə suvaqla bərkidilmişdir. Bu kvadratdan çoxlu sayda dən daşları, saxsı qab fraqmentləri də götürülmüşdür.

*Muğan mədəniyyətinə (Əliköməktəpə tipli) aid tapıntılar*

Qeyd etdiyimiz kimi abidənin ən alt qatında əliköməktəpə tipli Xalkolit dövrü tapıntılarına rast gəlinmişdir. Əsasən qulp fraqmentlərindən ibarət olan qablar əliköməktəpə tipli olmaqla primitiv formada hazırlanmışdır. Qulplar lentvari-yastıdır. Gilinin tərkibi qum qatışıqlı olub zəif bişirilib. Saxsı qab fraqmentlərindən üzərində relyef naxışlarla işlənmiş nümunələr də vardır. Analoji tapıntılar Xantəpənin Xalkolit dövrü gil məmulatı içərisindən məlumdur (11, s. 48). İri ölçülü qablara məxsus ağız fraqmentləri də kobud formada hazırlanmış nümunələrdir. II kv-da 1,8 m dərinlikdən Xalkolit dövrünə aid monoxrom boya naxışlı qab fraqmentləri də üzə çıxmışdır ki, (Şəkil 1) bu tip keramika Muğanın Əliköməktəpə və Polutəpə yaşayış yerlərindən kifayət qədər məlumdur (16, c.189-194).

Abidənin Xalkolit dövrü təbəqəsindən daşdan və gildən əmək alətlərinə də rast gəlinib (Şək. 2/4-6). Bunlar çaxmaqdaşından oraq dişləri, daşdan sürtgəclər və gildən sapand daşlarıdır. Əliköməktəpə yaşayış yerində bu tip tapıntılar kütləvi saydadır (16, c.198; 14, c. 70) və şübhəsiz ki, onlar Muğan əhalisinin bəhs olunan dövrünün təsərrüfatında geniş istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, tədqiqatçılar əliköməktəpə tipli kəsici alətlərə əsasən erkən əkinçilərə üç tip oraqların məlum olduğunu qeyd edirlər: bunlardan birinci tipi çaxmaqdaşından Şomutəpə tipli dişli oraqlardır ki, onlar Muğanda az yayılmışdır (14, c. 75). Məhz Xudutəpədə də hələlik bu tip kəsici alətlər tapılıb. Bərk gildən hazırlanmış oxşar sapand daşları və daş sürtgəclər də Əliköməktəpədən (16, c. 198; 14, c. 76) məlumdur.

Xudutəpənin əliköməktəpə tipli tapıntıları içərisində iy başlıqları da vardır. Qonur rəngli gildən hazırlanmış iy başlıqlarının ortası deşikdir. Onlardan bir əşyanın üzərində bişirilmədən əvvəl basma üsulunda batıqlardan ibarət naxış vurulmuşdur. Təmiz tərkibli gildən yaxşı hazırlanmış əşya bütövdür. Sümükdən hazırlanmış iy başlıqlarının da ortası deşikdir. Eyni tip əşyaların diametri demək olar ki, standart olub 4-5 sm-dir. Əliköməktəpə yaşayış yerinin qazıntıları zamanı aşkar edilmiş analoji gildən və sümükdən əyircəklər (iy başlıqları) toxuculuq kimi sənət sahələrinin inkişafının faktiki sübutudur (14, c. 78).

İri buynuzlu heyvanın lülə sümüyündən hazırlanmış cilalayıcı alətlərin işlək ucu qaşımaq üçün kəsilərək nazikləşdirilmişdir (Şəkil 2). Eyni zamanda bu hissəyə doğru üst boşluq tərəfi də iş prosesində rahat istifadə edilməsi üçün düz kəsilmişdir. Uzun müddət əldə istifadə edildiyi üçün alətlər parlaq cilalı şəklə düşmüşdür.

Uzunluqları 11-17,5 sm arasındadır. Biz tipli əşyalar da xırdabuynuzlu heyvanın sümüyündən hazırlanmış və iti ucludurlar. Əldə uzun müddətli istifadə nəticəsində üstü cilalı şəkil almışdır. 6-8 sm uzunluqları vardır. Analoji sümük cilalayıcılar və bizlər Əliköməktəpə yaşayış yerindən kifayət qədər məlumdur (16, c. 108; 13, c. 71-72).

Bu təbəqənin materialları içərisində 2 ədəd daşdan kiçik qadın bütü maraq doğurur. Qonur rəngli, sıx tərkibli daşdan yonulayaq çəkmə formasına salınmış bütlərdən birinin arxa hissəsi düz və yastı, oturacaq hissəsi də qismən hamardır. Həm arxa, həm də alt tərəfində iki yanaşı paralel cızma xətlər çəkilmişdir. Yuxarı tərəfi yığcam üst hissəsi düz kəsilmiş və aşağı sonluğu isə şişmandır. 2,6 m dərinlikdən tapılmış fiqurun hün.- 8 sm, eni- 5,5 sm, qalın. - 3 sm-dir. Qum daşından yonularaq qadın obrazını xaıtrladan digər fiqurun baş hissəsi kiçik, bədən hissəsi isə enlidir (Şəkil 3). Sinəsi qabarıq ifadə edilmişdir. Müstəvi üzərində düz qalması üçün alt tərəfi yastı hamarlanmışdır. Hündürlüyü 12,5 sm olan büt 2,8 m dərinlikdən üzə çıxmışdır.

Əliköməktəpə tipli materialların azlığı abidənin ətəkdə bu dövr təbəqəsinin zəif salınması ilə izah oluna bilər. Lakin, istisna deyil ki, abidənin mərkəzinə doğru getdikcə gələcəkdə daha çox çeşidli materiallar çıxacaqdır.

N.Müseyiblinin fikrincə, Əliköməktəpəsindən aşkara çıxarılmış erkən əkinçilik dövrü maddi mədəniyyət qalıqları müstəqil arxeoloji mədəniyyətdir. Tədqiqatçı Xalkolit dövrünün orta mərhələsinə aid bu mədəniyyəti “Muğan arxeoloji mədəniyyəti” adlandırır. O, bu fikrini Muğanda aşkar edilmiş Xalkolit dövrünə aid memarlıq qalıqları, keramika, daş, sümük məmulatlarına əsasən mədəniyyətin fərqli xüsusiyyətlərə malik olması ilə əsaslandırır (8, s. 149).

*Leylatəpə mədəniyyətinə aid tapıntılar*

Leylatəpə mədəniyyətinə məxsus tapıntılar küpə fraqmentləridir (Şəkil 4. 1-3). Bu tapıntılara mədəni təbəqənin əliköməktəpə tipli materiallardan üst hissəsində rast gəlinir. Lakin bu dövr tapıntıları da hələlik azlıq təşkil edir. Qazıntılar genişləndikcə materialların daha çox aşkar olunacağı şübhəsizdir.

Leylatəpə tipli tapıntılar bir qayda olaraq qalın divarlı, qırmızı və açıq-qırmızı rəngli, bitki qatışıqlı gildən yaxşı hazırlanmış “keyfiyyətli keramika” kateqoriyasına aid olan orta tutumlu küpələrə məxsusdur. Qıfşəkilli ağız kənarları yana geniş açılır. Səthlərində zəif anqob qatı çəkilib. Divarlarının qalınlığı 1 sm-dir. Bu mədəniyyətə aid tapıntılar içərisində 1 ədəd diskşəkilli əşya da vardır. Saxsı qabın gövdə hissəsindən yonularaq düzəldilmiş əşyanın ortasında ikitərəfli deşiyi açılmışdır. Gili bitki qatışıqlıdır, qırmızı rənglidir, yaxşı hazırlanıb. Əşyanın diametri- 4 sm-dir.

Ümumilikdə Muğanın leylatəpə tipli tapıntıları Alxantəpə yaşayış yerinin əsasında öyrənilmişdir (3, s. 46-51). Xudutəpədən tapılmış bu fraqmentlərin analogiyaları Mil-Qarabağ və Azərbaycanın şimal-qərb bölgəsində aparılan tədqiqatlar zamanı aşkar olunmuşdur. N.Müseyibliyə görə, bu mədəniyyətin keramika istehsalının başlıca səciyyəvi xüsusiyyətləri bütün abidələr üçün ümumi sayılan bitki qatışıqlı gildən dulus çarxında hazırlanmış və sabit temperaturda bişirilmiş küpə, küp və boşqab tipli qablardır (6, s. 114-115). Arxeoloji qazıntılar zamanı tapılmış bu tip qabların çeşidliliyinin öyrənilməsi və digər həmdövr abidələrlə müqayisəli təhlili Xalkolit dövrünün son mərhələsində dulusçuluğun yüksək inkişaf xüsusiyyətlərini araşdırmağa zəmin yaradır (1, s. 94).

*Kür-Araz mədəniyyətinə aid tapıntılar*

Abidənin keremika materialları içərisində mütləq əksəriyyət Kür-Araz mədəniyyətinə məxsus yarımşar formalı qulp nümunələridir. Küpələr bir qayda olaraq orta tutumlu saxsı qaba məxsus fraqmentlər olub əsasən gen və uzun boğazlı, yastı, enli, şarvari qeyri-standart formalı qulplara malikdirlər. Ağız kənarları köbəli olub xaricə qatlanmışdır. Qalın divarlı, əsasən qonur, qırmızı rəngli, qum tərkibli gildən zəif hazırlanmış qabların üstü his qatı ilə örtülüb. Bəzi qabların ağız kənarı düzdür. Slindrik boğazları vardır. Boğazı ilə çiynini birləşdirən enli, şarvari qulplu qab fraqmentlərinə də rast gəlinir. II kv-n şərq tərəfindən 1 ədəd kiçik ölçülü tam salamat küpə üzə çıxmışdır.

Tavalar qalın divarlı, qəhvəyi rəngli, qum qatışıqlı gildən zəif hazırlanmış saxsı qablardır. Onlar çox kiçik fraqmentlər halında tapılmışdır (Şəkil 4. 4-5).

Qulplar əsasən iri ölçülü olub boz, qəhvəyi, qonur, qırmızı rəngli gili qum və narın qum qatışıqlı olmaqla yastı, enli, yarımşarşəkillidirlər

(Şəkil 5). Əksəriyyəti qeyri-simmetrik qaydada hazırlanmışdır. Bir çoxunun üzərində his qatı qalıb. Ehtimal ki, qulplar qabın boğaz hissəsində olmuşdur. Səliqəli formada, yastı, enli və yarımşarvar hazırlanmış qulplara da rast gəlinir. Onlar daha iri ölçülü qablara məxsus olub gövdə hissəsində düzəldilib. Qulpların eni bir qayda olaraq 2,7-3 sm, divarlarının qalınlığı 0,8-1,2 sm arasında dəyişir.

Gildən ocaq altlıqları da açıq-qırmızı, qonur rəngli, qum və bitki-qum tərkibli gildən yaxşı hazırlanıb. Sınmış hissə olduqları üçün fraqmentlərin altlığın hansı tərəfinə məxsusluğu aydın görünmür. Qalınlıqları 1,3-4,5 sm arasında dəyişir.

Tapıntılar arasında gildən butə və qoç fiqurları, araba təkəri modelləri də maraq doğurur. Kiçik ölçülü butə qara rəngli, gili bitki-qum qatışıqlıdır. Alt hissəsi yastıdır. Divarı qalındır. Ağız hissəsi nazik və nahamardır. Butə əldə kobud formalaşdırılıb. Gövdəsinin diametri-5,5 sm, oturacağının diametri-5 sm, divarının qalınlığı-1 sm-dir.

Ağ rəngli, təmiz tərkibli gildən unikal formada hazırlanmış bir qoç fiqurunun bel hissəsi qalın, baş hissəsi isə nisbətən incə işlənmişdir (Şəkil 6.1). Qoçun başı aşağı dikilmiş, buynuzları sınmışdır. Burun hissəsi kiçik, ondan yuxarıda isə ikitərəfli deşik açmaqla gözləri təsvir edilmişdir. Dörd ayaqları bir birinə simmetrik qaydada düzəldilmiş, lakin ön ayaqları arxa ayaqlardan nisbətən uzun hazırlanmışdır. Ayaqların alt hissəsi yonulmuşdur ki, bu da fiqurun müstəvi üzərində düz durması üçündür. Qoçun belinin sonunda quyruğu təsvir edilib. Sağ yanında, belində 11 ədəd bir-birinə yanaşı dairəvi batıqlardan ibarət naxış vurulmuşdur. Sol yanında yanıq izi müşahidə edilir. Fiqur salamat olub uzunluğu-7,5 sm, hündürlüyü-4 sm-dir.

Kiçik Qafqazın İlk Tunc dövrü arxeoloji abidələrinin tədqiqi zamanı az sayda, lakin maraq doğuran kolleksiyalardan biri də heykəltaraşlıq nümunələri olan terrakotalardır. Onlar əsasən, zoomorf fiqurlar olub Kür-Araz mədəniyyətinin başlıca tapıntılarından hesab edilir. Azərbaycan ərazisində bu tip tapıntılar ilk dəfə olaraq Naxçıvandakı I Kültəpədən və Qazaxdakı Baba Dərvişdən məlumdur. Eyni zamanda bu nümunələrin analogiyalarına Gürcüstanın Şenqavit, indiki Ermənistanın Moxra-Blur, Ariç yaşayış yerlərində də rast gəlinib (15, c. 108-109).

Zoomorf fiqurlar əsasən Mil-Qarabağın Qaraköpəktəpə, Günəştəpə, Uzuntəpə, Xantəpə yaşayış yerlərindən məlumdur. Bu tapıntıların əksəriyyəti kobud formada gildən hazırlanıblar (11, s. 52; 15, c. 106). Naxçıvan MR-dakı I Maxta yaşayış yerindən də gildən hazırlanmış kiçik ölçülü qoç fiqurları tapılmışdır (5, s. 20). Analoji gil fiqurlar Urmiya hövzəsinin Göytəpə yaşayış yerinin İlk Tunc dövrü təbəqəsindən məlumdur (12, s. 201, şək. 12/1).

Arxeoloji ədəbiyyatda zoomorf gil fiqurların düzəldilməsi səbəbləri barədə müxtəlif mülahizələr mövcuddur. S.Aşurovun fikrincə, torpağın becərilməsində insan əməyini yüngülləşdirən öküzlərdən qoşqu qüvvəsi kimi istifadə olunması nəticə etibarilə bu heyvana səcdə olunmasına və dini ayinlərlə bağlılığa gətirib çıxarmışdır (4, s. 68). Q.İsmayılzadə də İlk Tunc dövründə Azərbaycan və bütünlüklə Cənubi Qafqazın ayrı-ayrı yerlərində olduğu kimi ev heyvanları, xüsusən inək və öküzün müqəddəs hesab edilərək əsas sitayiş obyekti olduğunu yazır. Onun fikrincə, İlk Tunc dövrünün əhalisi çox güman ki, məişət və təsərrüfatda mühüm yer tutan qeyri-təbii qüvvələrin mənbəyini görmüş və oda etiqad mərasimlərində məhz bunları qurban gətirmişdilər (11, s. 34).

Yaşayış yerinin araba təkəri modelləri qırmızı rəngli, gildən hazırlanmış və qum tərkiblidir. Simvolik olaraq çarx hissə yastı, enlidir. Diametrləri 3-4,5 sm arasında dəyişir.

Kiçik Qafqazın cənub-şərq ətəklərindəki abidələrdən çoxlu sayda gil-təkər modelləri tapılıb. Haqqında bəhs olunan bu tapıntılar dövrün məişətinin öyrənilməsi üçün əhəmiyyətli rol oynadığını göstərir və bütün bunlar Kür-Araz mədəniyyəti sakinlərinin təsərrüfat həyatının göstəricisi hesab oluna bilər (15, c. 107). Bu tip modellər I Kültəpə və Baba Dərviş yaşayış yerindən, Kür-Araz mədəniyyətinin Gürcüstanda yayılmış Naçar-qora, Kvasxelebi, Qudabertka və s. abidələrindən məlumdur. Eyni zamanda şimal-şərqi Qafqazda, Çeçen-İnquşetiyanın Serjenyurt qədim yaşayış məskənindən də eyni tipli nümunələr əldə edilib (13).

Analoji təkər modelləri I Maxta yaşayış yerindən də əldə olunmuşdur. Maxtanın bu tip nümunələri narın qum qatışıqlı gildən yoğrulmuş,

rəngləri boz, qonur və qaradır. 2011-ci il qazıntıları zamanı bu yaşayış yerindən ölçüsünün böyüklüyünə görə 1 ədəd araba təkəri modeli tapılmışdır ki, bu tapıntı indiyədək Naxçıvandan məlum olan ən geniş diametrli (11 sm) model hesab olunur. Araba təkəri modellərinin I Kültəpənin eneolit dövrü təbəqəsindən tapılması sübut edir ki, İlk Tunc dövrününün birinci mərhələsindən gec olmayaraq yerli tayfalara araba məlum olmuşdur. Bir tərəfdən Yaxın Şərq ölkələri ilə iqtisadi əlaqələrin genişlənməsi, digər tərəfdən isə qoşqu vasitəsi kimi (öküz, at) arabadan istifadə olunması zərurətini doğurmuşdur. Son Xalkolit dövründən başlayaraq insanların təsərrüfat həyatına daxil olmuş araba uzun müddət dəyişməz qalmışdır (5, s. 23). Urmiya gölü hövzəsindəki Göytəpə və Yanıqtəpənin İlk Tunc dövrü saxsı məmulatları içərisində də çoxluq təşkil edən araba təkəri modelləri və əyircəklər vardır ki, bəzi tədqiqatçılar hətta təkər modellərini əyircək kimi təsvir etmişlər (12, s. 53).

Araba təkəri modelləri Ön Asiyanın qədim abidələrində geniş yayılmış və burada daha çox iki öküzə qoşulmuş araba təkəri modelləri Ur abidələrindən tapılmışdır. Azərbaycan ərazisində ikitəkərli qoşqulu vasitələrin tunc dövrünün son mərhələsinə qədər intensiv istifadəsi arxeoloji tapıntılardan yaxşı məlumdur. Bunu xüsusilə əkinçilik təsərrüfatında başlıca rol oynayan amillərlə izah etmək olar (15, c. 110).

Dağlıq Talışın və İranın Gilan vilayətinin bəhs olunan dövr qəbir abidələrindən tapılan öküzə qoşulmuş araba modelləri də təsərrüfatda qoşqu vasitəsi kimi arabaların üstünlüklərini göstərir. Müasir dövrümüzdə də yüksək dağlıq ərazilərdə əkinçilikdə cütə qoşulmuş heyvanlardan torpağın şumlanması üçün istifadə olunur (2, s. 162).

Bütün bunlar sübut edir ki, Xudutəpənin üçüncü təbəqəsi Kür-Araz mədəniyyətinin yaşayış məskəni olmuşdur. Onun elementləri xüsusilə ocaq qurğularında, şarşəkilli qablarda, heyvan təsvirli gil fiqurlarda, araba təkəri modellərində əks olunur. Buradan aşkar olunan saxsı istehsalı üçün manqal tipli ocaq altlıqları analoji olaraq Kültəpə, Baba-Dərviş və Amiranisqoradan tapılmışdır. Digər formalı ocaq qurğuları da Kür-Araz saxsı komplekslərindən tapılıb. F.Mahmudovun qeydlərinə görə, saxsı istehsalı üçün hazırlanan bu tip ocaq qurğuları müasir dövrümüzdə də yerli əhalinin dulusçuluq sənətində istifadə edilir. Misal olaraq Masallı rayonunun Hişkədərə və Miyankü kəndlərində demək olar ki, hər qapıda buna rast gəlinir (16, c. 25).

Ümumilikdə Xudutəpənin bəhs olunan dövrə aid tapıntılarının ən yaxın oxşarlarını Naxçıvan abidələrində izləmək mümkündür (8; 5) Yaşayış məskəninin İlk Tunc dövrü qabları Naxçıvanın Ərəbyengicə yaşayış yerinin materialları ilə eyniyyət təşkil edir. Ərəbyengicənin də keramika məmulatı iki yerə bölünür: çəhrayı rəngdə bişirilmiş qablar, hansılar ki, onlar boz-sarı rəngdən qırmızıyadək müxtəlif qablara malikdir. Onlar Kür-Araz mədəniyyətinin ilk mərhələsinə - Eneolit mədəniyyətindən Kür-Araza keçid dövrünə aiddir. İkinci qrup keramika əsasən boz və qonur-qara rəngli gil qabların müxtəlif hissələrindən ibarətdir. Əsasən qum, bəzən isə müxtəlif qatışıqlı gildən hazırlanmışlar (9, s. 27).

Naxçıvandakı Daşarx yaşayış yerinin də materialları Xudutəpə ilə yaxın analogiya təşkil edir. Abidənin mədəni təbəqəsi Kür-Araz mədəniyyətinin bütün mərhələlərini əhatə edərək e.ə. IV-III minilliyə aiddir (10, s. 12-13).

**Nəticə**

Xudutəpə abidəsi Muğan-Leylatəpə-Kür-Araz mədəniyyətlərinin mərhələli şəkildə inkişafı kimi çox mühüm elmi problem məsələlərin öyrənilməsi baxımından əhəmiyyətə malikdir. Yaşayış məskəninin bəhs olunan dövrlərə aid təbəqəsindən tapılmış maddi mədəniyyət nümunələrinin mövcudluğu bölgənin qədim sakinlərinin təsərrüfat həyatı və məişəti ilə bağlı bir sıra məqamlara aydınlıq gətirməyə imkan verir. Gələcəkdə abidədə aparılacaq geniş miqyaslı tədqiqatlar nəticəsində daha yeni faktların üzə çıxacağı və Muğanın Xalkolit-İlk Tunc dövrünün öyrənilməsi üçün mühüm əhəmiyyətə malik elmi nəticələrə gəlinəcəyi şübhəsizdir. Bütün bunlar Azərbaycanın cənub-şərq bölgəsinin qədim dövr oturaq əkinçi-maldar əhalisinin həyat tərzinin araşdırılması işinə daha geniş imkan verəcəkdir.

## Ədəbiyyat


1. Ağalarzadə A.M. Azərbaycanın cənub-şərq bölgəsinin tunc-ilk dəmir dövrü əhalisinin əkinçilik təsərrüfatı (etnoarxeoloji tədqiqat)// Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, №3, 2019. "Bakı Universiteti Nəşriyyatı", 2019, s. 157-164.
2. Ağalarzadə A.M. Leylatəpə arxeoloji mədəniyyətinin keramikası. Bakı 2019, 224 s.
3. Axundov T.İ. və b. "Muğan neolit-eneolit ekspedisiyası"nın 2010-cu ildə gördüyü çöl tədqiqatları (Cəlilabad rayonu)// Baş redaktor: M.N.Rəhimova. Azərbaycanda arxeoloji tədqiqatlar 2008. Bakı: AfPoliqraff 2008, s. 21-25; Azərbaycanda arxeoloji tədqiqatlar 2009. Bakı: AfPoliqraff 2010, s. 38-44; Azərbaycanda arxeoloji tədqiqatlar 2010. Bakı, AfPoliqraff 2011, s. 46-51; Azərbaycanda arxeoloji tədqiqatlar 2015-216. Bakı, AfPoliqraff 2017, s. 81-86.
4. Aşurov S.H. Naxçıvanın İlk Tunc dövrü keramikası. Bakı: "Nafta-Press" 2002, 157 s.
5. Aşurov S.H., Hüseynova S.A., Əliyeva F.A. I Maxta İlk Tunc dövrü abidəsi. I kitab. Bakı, "Apostrof-A" 2020, 147 s.
6. Müseyibli N.Ə. Leylatəpə mədəniyyəti. Bakı, "Elm və təhsil" 2020, 576 s.
7. Müseyibli N.Ə. Azərbaycanın xalkolit dövrü mədəniyyəti. Bakı: "Turxan NPB" 2015, 220 s.
8. Müseyibli N.Ə. Xalkolit dövrü Muğan arxeoloji mədəniyyəti// "Sosial elmlər" 2023, №2. Baş red.: N.Axundova. Bakı: Elm 2023, s. 148-153.
9. Seyidov A., Baxşəliyev V., Mahmudova V. Ərəbyengicə qədim yaşayış yeri// Azərbaycanda arxeoloji tədqiqatlar 2008. Bakı 2008, s. 26-28.
10. Əliyev V., Aşurov S. Daşarx İlk Tunc dövrü yaşayış yeri/ Görkəmli Azərbaycan arxeoloqu Saleh Mustafa oğlu Qazıyevin anadan olmasının 100 illiyinə həsr edilmiş elmi sessiyanın materialları. Bakı, Elm 1994, s. 11-13.
11. İsmayılov Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, Elm 1981, 64 s.
12. İsmayılova Ş. Urmiya gölü hövzəsinin tunc dövrü keramikası. Bakı: 2011, 243 s.
13. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР. Баку, Элм 1987, 315 с.
14. Аразова Р. Орудия и хозяйство раннеземледельческого поселения Аликемектепе (в свете трасологического изучения). Баку: «Муаллим» 2022, 84 с.
15. Исмаилзаде Г.С. Азербайджан в системе раннебронзовой культурной общности Кавказа. Баку, «Нафта-Пресс» 2008, 304 с.
16. Махмудов Ф.Р. Культура юго-восточного Азербайджана в эпоху бронзы и раннего железа. Баку, Nafta-Press 2008, 216 с.


## Резюме

**Анар Агаларзаде**

### О находках периода халколита - ранней бронзы на поселении худутепе

В статье сообщается о находках эпохи халколита и ранней бронзы, ваявленных в результате раскопок многослойного поселения Худутепе, расположенного в Муганском регионе юго-востока Азербайджана. Выгодное природно - географическое расположение Худутепе стало причиной предолжительности обитания населения и создания культурных слоев различных эпох. В результате раскопок было определено, что три нижных слоя памятника относятся к халколиту - ранней бронзе (Муганское, Лейлатепинское, Кура-Араксинское культуры). На самом нижнем слое памятника выявлены халколитические находки аликемектепинского типа. Среди находок также имеются фрагменты сосудов лейлатепинской культуры. Находки этого периода немногочисленны. Среди керамического материала памят-

ника большинство составляют в основном находки лентовидных ручек кухонной посуды куро-аракского типа.

**Ключевые слова:** *Юго-восточный регион, поселение Худутепе, эпоха халколита - ранней бронзы, стратиграфия, хронология.*

**Summary**

**Anar Agalarzade**

**About the chalcolithic-early bronze age findings of the khudutepe settlement**

The article deals with the Chalcolithic and Early Bronze Age findings discovered as a result of the excavations carried out in the Khudutepe multi-layered settlement located in the Mughan region in the south-eastern part of Azerbaijan. The location of Khudutepe in a favorable natural geographical relief has led to the existence of Khudutepe as an intensive settlement of the population settled in the region for a long time and as a result of this, the formation of cultural layers belonging to different periods. As a result of the excavations, it was found that the three of the lower layers of the monument belong to the Chalcolithic-Early Bronze Ages (Mugan, Leilatepe and Kura-Arax cultures). İn the lowest layer of the monument, Alikomek tepe type findings of the Chalcolithic period were found. Jug fragments belonging to the Leilatepe culture are also among the findings. However, the findings of this period are still few. Among the ceramic materials of the monument, the majority are mainly examples of the Kura-Arax type with ribbon-shaped handles, belonging to the group of kitchen utensils.

**Keywords:** *Southeast region, Khudutepe settlement, Chalcolithic-Early Bronze Age, stratigraphy, chronology*






Şəkil 1. Əliköməktəpə tipli monoxrom boyalı qab fraqmentləri



Şəkil 2. Əliköməktəpə tipli sümük cilalayıcılar



Şəkil 3. Əliköməktəpə tipli daşdan qadın bütü




Şəkil 4. 1-3 - Leylatəpə tipli saxsı qablar; 4-5- İlk tunc dövrü tava fraqmentləri




Şəkil 5. Kür-Araz tipli yarımşar qulplar




Şəkil 6. İlk Tunc dövrü heyvan fiqurları